# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

## IV BEYNƏLXALQ ELM VƏ TƏHSİLİN ƏSASLARI KONFRANSININ

## M A T E R İ A L L A R I

(7 iyun 2023)

## M A T E R I A L S

## OF THE IV INTERNATIONAL CONFERENCE ON THE FOUNDATIONS OF SCIENCE AND EDUCATION

(7 june 2023)

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.864**

---

**IV BEYNƏLXALQ ELM VƏ TƏHSİLİN ƏSASLARI KONFRANSININ**

**M A T E R İ A L L A R I**

**(7 iyun 2023)**

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.864**

---

**M A T E R I A L S**

**OF THE IV INTERNATIONAL CONFERENCE ON THE FOUNDATIONS OF SCIENCE AND EDUCATION**

**(7 june 2023)**

**Bakı – Baku**
**2023**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included
in the register of Press
editions of the Ministry
of Justice of the Republic
of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Mətbuat Avenue, 529,
"Azerbaijan" Publish
House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
bek.tedqiqat@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10. 36719**

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Sədr müavinləri

**Mübariz HÜSEYİNOV,** "Elmi Tədqiqat" beynəlxalq onlayn elmi jurnalının baş redaktoru / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK,** Qazax dili Akademiyası / Qazaxıstan

# ÜZVLƏR

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN,** Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Cihan ÖZDEMİR,** Biləcik Şeyx Edəbali Üniversiteti / Türkiyə
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne American Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti/ Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zaman MƏMMƏDOV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr.Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL,** Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ

**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Busra BILAL,** Ali Jinnah Universiteti / Pakistan İslam Respublikası
Dr. **Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Assoc. Prof. Dr.Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr.Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan

## THE ORGANİZİNG COMMİTTEE

### Chairman

**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan

### Deputy chairmen

**Mubariz HUSEYINOV:** Editor-in chief of the international scientific journal "Scientific research" / Azerbaijan
**Prof. Dr.Erden Kajibek,** Kazakh Language Academy/ Kazakhstan

## MEMBERS

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uugunbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Cihan OZDEMİR**, Bilecik Sheykh Edebali University / Turkey
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the Uzbekistan Academy of Sciences / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Aferin ABBASOVA,** Western Caspian University / Azerbaijan

**Assoc. Prof. Dr. Shefeg ABDULLAYEVA**, Azerbaijan Universty of Language / Azerbaijan

**Assoc. Prof. Dr. Zaman MƏMMƏDOV**, Institute of Soil Science and Agro Chemstry of ANAS / Azerbaijan

**Assoc. Prof. Dr.Garanfil GULİYEVA,** Baku State University / Azerbaijan

**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey

**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan

**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey

**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey

**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan

**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey

**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan

**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia

**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan

**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan

**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan

**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan

**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research Institute / Azerbaijan

**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan

**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan

**Assoc. Prof. Dr. Busra BILAL,** Ali Jinnah University İslamic Republic of Pakistan

**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan

**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine

**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden

**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia

**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan

**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 6-9
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 6-9
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Aysel Şükürova**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
Filologiya üzrə fəlsəfə doktoru
aysel_edu@yahoo.com

## İNGİLİS SİYASİ DİSKURSUNDA METONİMİYALAR

***Açar sözlər:*** *koqnitiv dilçilik, ingilis siyasi diskursu, nitq, metonimiya, informasiya, kommunikasiya*

***Keywords:*** *cognitive linguistics, English political discourse, speech, metonymy, information, communication*

Metonimiya nominasiya üsulu kimi bir çox elm sahələrinin tədqiqat obyektinə çevrilmişdir. Bu sahələrə koqnitiv dilçilik və diskursiv təhlil metodu da aiddir. Qeyd etmək lazımdır ki, məcazlar sistemində metonimiyanın özünəməxsus yeri var və Dilçilik lüğətində metonimiya aşağıdakı kimi izah olunur: "*Metonimiya (yunan dilindən metonymia – addəyişmə) – məcaz və ya nitq mexanizmidir. Bu mexanizm bir obyektlər sinfindən və ya bir obyektdən digər sinif və ya ayrıca əşyaya (verilən obyektlə yaxınlığı, həmhüdudluğu, eyni situasiyada yer almasına görə assosiasiya edilən) nizamlı və ya təsadüfi ad köçürülməsindən ibarətdir*" (Yartseva, 1998: 300). Deməli, metonimik əlaqələrdəki sahələrin qarşılıqlı münasibəti sıx və bir-birindən asılıdır. Metonimik köçürmə məhz bitişiklik əsasında, məkan və ya zaman kontekstində əşyaların yaxın təması nəticəsində gerçəkləşir. Bununla da real aləmdəki hər hansı bir məfhumun

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

və ya anlayışın adı digərinə keçir. Metonimik köçürmənin təfəkkürdə əksi konseptlər arasında olan kauzal, temporal, lokal əlaqələrin nümunəsini təqdim edən implikativlikdir. Beləliklə, metonimiya ilkin və törəmə məna arasındakı implikativ məzmuna əsaslanan bir məcaz kimi başa düşülür.

Qeyd etmək lazımdır ki, insan haqqında təsəvvürlər bir çox dil hadisələri üçün təbii istinad nöqtəsi olaraq çıxış edir. Belə ki, koqnitiv modeldə metonimik köçürmənin ən geniş yayılmış üsullarından biri ölkə adları ilə bağlı konseptlərin insanla eyniləşdirilməsidir, yəni konsept diskursda canlı orqanizm və ya insan kimi təsvir olunur. Biz bu halı antropomorfizm və ya personifikasiya adlandıra bilərik. Belə metonimik köçürmədə konseptlərə sosial, mental, fizioloji, emosional və s. antropomorf əlamətlər aid edilir. Burada koqnitiv modellər sintaktik konstruksiyalar vasitəsilə aktuallaşır. Sintaktik konstruksiyalarda konsept sintaktik mövqedə hərəkətin subyekti kimi çıxış edir. Deməli, metonimik koqnitiv modeldə konseptin sosial statuslarını aşkarlamaq mümkündür. Belə nümunələrə ingilis siyasi diskursunda tez-tez rast gəlmək olar.

Məsələn, Vinston Çörçillin (Sir Winston Leonard Spencer-Churchill, 1874-1965) nitqlərindəki metonimiyalara nəzər yetirək:

"*If **Germany** had tried to invade the British Isles after the French collapse in June 1940, and if **Japan** had declared war ...*" (2).

"*Five or six years ago it would have been easy, without shedding a drop of blood, for **the United States** and **Great Britain** to have insisted on the fulfillment of the disarmament clauses of the treaties which **Germany** signed after the Great War*" (2).

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

Yuxarıdakı nümunələrdə Vinston Çörçill toponimik metonimiyalar sayılan *Germany, Japan, the United States, Great Britain* kimi onomastik vahidlərdən istifadə etmişdir.

Bundan əlavə, Böyük Britaniyanın keçmiş Baş naziri Marqaret Tetçerin (Margaret Thatcher, 1925-2013) nitqlərindəki metonimiyalara nəzər yetirək:

"*On this day, close to the 40th anniversary of that service and of peace in Europe - one of the longest periods without war in all our history - I should like to recall those words and acknowledge how faithfully* ***America*** *has fulfilled them*" (3).

"*... the undiminished agony of tortured* ***Poland*** *...*" (3).

"*From these shores, it may seem to some of you that by comparison with the risk and sacrifice which* ***America*** *has borne through four decades and the courage with which you have shouldered unwanted burdens,* ***Europe*** *has not fully matched your expectations*" (3).

Təqdim edilmiş nümunələrdə metonimik köçürmə *America, Europe* və *Poland* toponim-konseptləri vasitəsilə gerçəkləşmişdir.

İngilis siyasi diskursu əsasında metonimik köçürmələri təhlil edərkən belə nəticəyə gəlmək olar ki, həm Vinston Çörçillin, həm də Marqaret Tetçerin nitqlərindəki metonimiyaların praqmatikası güclüdür.

Hər iki siyasi xadimin çıxışlarında metonimiya kimi istifadə olunan toponim-konseptlər tarixi, mədəni, ideoloji və siyasi məlumatı təqdim edir. Bu isə öz növbəsində ingilis siyasi diskursunun linqvistik, koqnitiv və praqmatik aspektlərini zənginləşdirir.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

## Ədəbiyyat

1. Yartseva. V. N. (1998). Yazıkoznanie. Bolşoy entsiklopedicheski slovar. Moskva: «Bolshaya Rossiyskaya Entsiklopediya», 685 s.
2. https://www.americanrhetoric.com/speeches/winstonchurchillmastersofourfate.htm
3. https://www.americanrhetoric.com/speeches/margaretthatcherjointsessioncongress.htm

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 10-12
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 10-12
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

**Ayşən Hüseynova**
Lənkəran Dövlət Universiteti
magistrant
aysen.huseyinova.list@gmail.com

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA ELM VƏ ƏXLAQ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *elm, əxlaq, mənəviyyat, təhsil, Nizami irsi*
***Keywords:*** *science, morals, morality, education, Nizami heritage*

Dahi Azərbaycan şairi Nizami Gəncəvi 1141-ci ildə Azərbaycanın gözəl güşələrindən biri olan qədim Gəncə şəhərində dünyaya göz açmışdır. Şairi dünyada məşhur edən mükəmməl sənət nümunəsi olan "Xəmsə"si hər kəsə bəllidir. Nizaminin yazdığı poemalar: "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" hər biri ümumilikdə "Xəmsə", yəni "Beşlik" adı ilə bütün dünyada şöhrət tapan incilərdəndir. Ölməz sənətkarın qələmə aldığı poemaların hər birində elm, əxlaq, təlim-tərbiyə məsələləri öz əksini tapmışdır.

Dahi şairin fikrincə, bilik bir xəzinədir. Elm, bilik elə bir həzz mənbəyidir ki, insana hər bir şeyi, iztirabı, ahıllığı belə unutdura bilir. Öyrənilməsi lazım olan hər bir şey həddindən artıq çoxdur, insan ömrü isə çox qısadır. Biliksiz həyat həyat sayılmaz.

Həqiqətən də qüdrətli şairin sözlərində olan bu düzgünlüyü görməmək qeyri-mümkündür. Nizami Gəncəvi öz müasirlərindən fərqli olaraq, elmə, təhsilə, təlim-tərbiyəyə, hətta pedaqoji prosesə çox önəm vermişdir. "Xəmsə"də həmin məsələlərlə bağlı bu gün də öz aktuallığını itirməyən hikmətli

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

fikir və ideyalar irəli sürülmüşdür. Kamil insanın formalaşmasında elmin, təhsilin, biliklərə yiyələnməyin çox böyük rolu vardır. İnsanları heyvanlardan fərqləndirən əsas əlamət onun ağlı və kamalıdır. Ağlın çırağı isə bilikdə və elmdədir. Elə buradan da dahi, ölməz sənətkarın fikrini qeyd etmək yerinə düşərdi:

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz.

Nizami Gəncəvinin "Kamil insan" obrazı kimi yaratdığı İsgəndərin təlim alması səhnəsində konkret nümunələr verilmişdir. İsgəndərin hərtərəfli inkişafını təmin etmək üçün atası onu təlimin yüksək biliyi ilə şöhrət qazanmış Niqumaş adlı alimə tapşırır. O, İsgəndərin bütün elmlərin sirlərinə bələd olmasını, "hər gizli biliyə" çatmasını təmin edir. Dahi şair deyirdi:

Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

Qeyd edildiyi kimi, dahi şair təkcə elmləri deyil, hər hansı bir sənəti öyrəndikdə, hətta palançı belə olduqda, yarımçılıqdan qaçmağı, öz peşəsinin kamil ustası olmağı tövsiyə edir. Nizami Gəncəvi başqa bir nümunədə qeyd edir:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.
Kim ki, yetişmədi ağıldan bara,
Oxşar insansifət əjdahalara.

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

Burada isə qeyd olunur ki, qüdrətli sənətkarın fikrincə, ağıllı insan daim kamilləşməyə çalışmalıdır. Və ən əsası elmə yiyələnməyi hər şeydən üstün tutmalıdır. Elmi, əxlaqı, təlim-tərbiyəsi yüksək səviyyədə olan insan ucala, kamilləşə bilər. Nizami Gəncəvi elmə, ağıla, kamala yiyələnməyi zəruri hesab etmişdir.

**IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları**
**7 iyun 2023 / 13-18**
**Materials of the IV International Conference of the Foundations of Science and Education**
**7 june 2023 / 13-18**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

**Ləman Abdulova**
Bakı Qızlar Universiteti
magistrant
lemanabdulova9@gmail.com

# OXUCUNUN İNKİŞAFINDA HUMANİTAR VƏ İCTİMAİ ELMLƏRİN ROLU

***Açar sözlər:*** *Mütaliə, muzey, şəxsilikdən ictimailiyə doğru, asılılıqdan müstəqilliyə doğru, intuisiyadan məntiqə doğru, tək fikirdən alternativə doğru, mühazirə..*

***Keywords:*** *Reading, museum, from personal to social, from dependence to independence, from intuition to logic, from single idea to alternative, lecture.*

Humanitar elmlər məntiqi təfəkkürü zənginləşdirməyə, tənqidi fikirlərin formalaşmasına şərait yaradır. Məzmununa, vasitəsinə görə ictimai elmlərlə kəsişir. Nümunə olaraq, ədəbiyyatşünaslıq, politologiya, fəlsəfə, hüquq, etika, estetika, sosiologiya, psixologiya, tarix və s. elmlərin adlarını çəkmək olar. Bunlar sosial həyatda zəruri mövqe tutmağa kömək edir. Münasibətlər ailədaxili təbii təşkil olunur. Təhsil müəssisələrində təbii, həm də süni yaradıla bilər. Münasibətlər fərdin inkişafını tamamlayır. Şəxsin formalaşmasına istiqamətlənir. Müəllim şəxsin inkişafı üzrə ən optimal yolu tapmalıdır. Sinif üzrə birgə mühazirələr yaradılmalıdır. Qrup və ya ümumi müzakirələr aparıla bilər. Qrup bölgüsü yaş və fənn üzrə edilə bilər. Onlar həm uğurlarını, həm də uğursuzluqlarını danışmalıdırlar. Bəziləri nəticəni necə aldıqlarını, bəziləri də nəticəyə niyə çata bilmədiklərini bölüşməlidirlər. Ziddiyyətli vəziyyət yaradılmalıdır. Oxu prosesinə keçməzdən əvvəl oxucular, şagirdlər üçün

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

mühazirələrə vaxt ayırılmalıdır. Oxu prosesi üçün öz əlavə mülahizələrini söyləyə bilərlər. Tənqidi təfəkkür mütaliə ilə yaranır. Bununla cəmiyyətdə olan hər şeyə fikir bildirmək olur. Şagirdin fəallaşması, təhsilin effektivliyi üçün dərs yeni təlim metodları ilə keçirilməlidir. Buna görə təhsili necə artırmaq lazımdır, ilk növbədə bunu öyrənmək vacibdir. Şagirdə öyrətmək lazımdır ki, kiminsə hər şeyi öyrədəcəyinə inanmaqdansa, öz təhsilin üçün məsuliyyət hiss etməlisən. Beləliklə, şagird düşünən oxucu olmalıdır. Eşitmək, görmək, müsbət təsirlər bağışlasa belə, mütaliənin ən gözəl üsulu dərsliklər, jurnallar, müxtəlif tədris vasitələrinin oxunmasıdır.

Başa düşmək dedikdə məlumatın nağıl edilməsini deyiriksə, onda bunu edən şagirdin məlumatı başa düşdüyünü deyə bilərik. Yox, əgər məlumatda əks olunmuş fikirlərin şagird tərəfindən qavranılmasını, öz real həyatına tətbiq etməsini nəzərdə tuturuqsa, onda nağıl etməklə başa düşməyin heç də eyni olmadığının fərqindəyik.

Şagird müəllifi anlamalıdır və onun fikrini öz fikri ilə müqayisə etməlidir. Müəllimlərin ilk işi şagirdləri düşüncəli yetişdirməkdir. Öyrəndiklərindən həzz almaq və həyatlarına tətbiq etməkdən çəkinməməlidirlər. Primitiv şərhə yox, mətn haqqında mürəkkəb düşüncəyə sahib olmağa yönləndirməliyik. Yazı və oxu üç mərhələdən keçməlidir. Vaxt, özünü müstəqil mütaliənin sahibi hiss etmək və oxunulan, yazılan materiala cavab verə bilmək.

Sübut olunmuşdur ki, yaxşı oxucu olmaq üçün ən yaxşı yol müstəqil oxudur. Buna görə də təhsil müəssisələrində mütaliəyə daha çox vaxt verilməlidir. Əgər şagird gülərüz, mehribanlıq hissləri duymasa oxumaya meyl etməyəcək və seçim qarşısında qaldıqda oxumaq istəməyəcəkdir. Lakin onlara özlərini oxucu kimi dərk etmək hissini tərbiyə edərək, vaxt ayırmaqla mütaliəni planlaşdırmağı öyrətmək lazımdır.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

Şagirdin dərslikdən nəyi, nə vaxta kimi oxumağını deyirik. Az hallarda nəyi, nə zaman oxumaq istədiyini müstəqil seçmək imkanı verilir. Biz şagirddən özümüzün vacib bildiyimiz nəyisə oxumağı, yazmağı tələb edirik. Bu zaman şagird özü üçün yox, başqası üçün edir. Mütaliədən kənarlaşmasına səbəb olur. Şagirdlərin özləri nəyi, hansı ədəbiyyatdan seçməyi üçün şərait yaradılmalıdır. Onlara seçim verilmədikdə həvəssiz yanaşacaqlar.

Nəyi oxumaq, seçimi qazanan şagird öz müstəqil oxusunun sahibinə çevrilir. Öz mütaliəsinin sahibi olaraq mütaliəyə marağı artır və maraqlarını şəxsən özləri seçir. Məqsəd və marağın harmoniyasının sonrakı idrak prosesinədə də təsiri olacaqdır. Seçim hüququ olmadıqda isə bunları təsəvvür etmək çətinləşir.

Məktəbdaxili mütaliə sosial əhəmiyyətə malik olmamışdır. Oxumaq üçün fərdi şəkildə vərdişlərə yiyələnmək kimi qiymətləndirilir. Nağıl kimi nəzərdə tutulur. Şagirdlər belə oxudan çox da nəsə qazana bilməzlər. Yenə də mütaliə sosial fəaliyyətdir. Bununla müəllif-oxucu səmimiyyəti yaranır. Amma bu səmimiyyət dar halda yox, geniş halda düşünülməlidir. Digər oxucular da iştirak etməli, material haqqında fikir bildirməli və bir-birilərinin fikrinə münasibət bildirmək yoluna istiqamətlənməlidir. Bu onlarda fərdi, şəxsi təcrübə olacaqdır.

Politologiya siyasi fəaliyyət, düşüncə, qərarlardan bəhs edən elmdir. Siyasi hadisələr ictimaiyyətə təsir edir. Nə kimi dəyişiklik varsa təhsilə daxil edilir. Hər bir vətəndaş kimi şagird də baş verən yeniliklər haqqında öz fikirlərini söyləyə bilər. Bununla onda siyasi fikir formalaşır.

Sosiologiya insanların sosial davranış və münasibətlərini normaya salan elmdir. Bu elmlər eyni arenada yarandığına görə bir-biri ilə sıx bağlıdır. Davranışlar mühitə görə dəyişir. Sosial

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

davranışların formalaşdırılması birbaşa təhsil müəssisələrindən asılıdır. Mənəviyyatın zənginləşməsi ilə genişlənir.

Etika fəlsəfənin vacib hissələrindən biridir. Etika qarşıya qoyulan əxlaq qaydaları və ictimai şüuru formalaşdıran onun tərkib hissələri olan əxlaq, tərbiyə, mənəviyyat haqqında fəlsəfi nəzəriyyədir. Mənəviyyat daxilimizdən, xarakterimizdən formalaşır. Xarakter həm bioloji, həm də mühitə, vəziyyətə, zamana görə yaranır. Gözəl xarakter üçün mütaliə vacibdir. Misal üçün, ədəbiyyat fənnində müəllim Mirzə Fətəli Axundzadə yaradıcılığını keçir. “ Sərgüzəşti mərdi-xəsis” və ya “Hacı Qara” komediyasını şərh edir. Hacı Qaranın xəsisliyi, ailəsindən hər şeyi kəsib yığmasını qınayır. Yumor şəklində yox, satirik şəkildə yanaşılır. Bununla şagirdlərdə əliaçıqlığın təbliğatı aparılır. Xəsisliyin xeyir gətirmədiyi vurğulanır. Xarakterdə nəcib hisslər cızılır. Bunun daha təsirli olması üçün fəal təlim metodu olan rollu oyundan istifadə gərəkdir. Əsər səhnələşdirildikdə şagirdlərdə maraq, həvəs yaranır. Müəllifin çatdırmaq istədiyi fikir daha yaxşı başa düşülür.

Estetika da fəlsəfi təfəkkürün bir qoludur. Mədəniyyət, incəsənət, bədii yaradıcılıq, gözəllik tərənnümüdür. İnsan həyatda gözəlliyi duymalıdır. Tarix fənnindən saray geyimləri, silahlar, döyüş alətləri, saray mətbəxinin nümunələrini və s. uşaqlara göstərmək üçün müəllim muzeylərə, tarixi abidələrə gəzinti təşkil eləməlidir. Bununla həm gözəlliyi duymuş, həm də tarixin qismən canlı şahidi olmuş olurlar. Şirvan tarix-diyarşünaslıq muzeyinin əsası 1980-ci ildə qoyulmuşdur. Muzeydə 11 mindən çox eksponat var. Sənədlər, qəzetlər, çap məlumatı, eramızdan əvvəl I minilliyə aid gil küpə, mis sikkələr və s. nümunələr mövcuddur.

Müəllim uşaqlarla tapşırılanlardan daha artıq ümumi qrup məşğələləri keçirə bilər. Belə etdikdə uşaqlarda diskussiyaya meyl yaranır. Əvvəl şagird nəyi xoşlayır, nəyi xoşlamır

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

şəklində fikrini ifadə edir. Yaşları artdıqca və təcrübə topladıqca obyektiv şəkildə başqalarının fikrini düşünərək, müqayisə edərək fikir bildirirlər. Hər bir halda şəxsi düşüncə təsirsiz qalmır. Təhsilli şəxsin fərqi bundadır ki, fikirlərini hamının başa düşəcəyi anlaşıqlı tərzdə ifadə edir. Uşaqlar asılılıqdan müstəqilliyə doğru mərhələdən keçir. Yaşları az olanda oxuduqları mətnin düzgünlüyünə tam şəkildə inanırlar. Mətnin fikrindən asılı olurlar. Yaş artdıqca və təcrübə topladıqca mətni təhlil edir, müstəqil münasibət bildirirlər. Fikirləri məntiqi şəkildə istifadə edildikdə daha demokratik olur. Situasiya isə səbəbin nəticəsinə baxmadan, fikrin təcrübəsinə baxmadan bildirilir. Məntiq konkret faktlara əsaslanır. Məntiq intuisiyanı tam şəkildə sıradan çıxarmır, yalnız o qədər edir ki, ictimai şüurda daha dominant olsun. İnsanlar çox zaman demokratik şəkildə çıxış etməyə üstünlük verirlər. İntuisiya bəzən yanlış ola bilər. Uşaqlarda hər iki düşüncənin növünü yaratmaq şərtdir. İntuisiyanı məntiq ilə əsaslandırmaq məqsədəuyğundur. Yetkin düşüncəyə sahib olmayan təkidlə öz dediyini deyir. Yetkin düşüncə təhsillə yetişir. Yetkin düşüncəyə sahib olan isə başqalarının fikirlərini dinləyir, onlardan bu haqda sübut istəyir. Öz fikrini dəyişdirə bilər. Bu tək fikirdən alternativlərə gedən yoldur. Şəxsilikdən ictimailiyə, asılılıqdan müstəqilliyə, intuisiyadan məntiqə və tək fikirdən alternativə doğru keçirilən mərhələlərdə tənqidi təfəkkür yaranır. Bunu müəllimlər dərslərdə rahat şəkildə edə bilərlər. Hər bir fənn tənqidi təfəkkürü yaratmağa zəmindir. Məqsəd düşünən şagird imici yaratmaqdır. Şagird müəllimin mühazirəsinə əsasən dərsdə cavab verir. Buna görə də tez-tez formanı dəyişmək məsləhətdir. Şagird yeni metodlara istiqamətlənə bilsin. Təcrübəsinə əsasən hər vəziyyətə tez adaptasiya ola bilir. Müəllim mühazirəni daha maraqlı belə keçirə bilər:

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

"Mühazirə iki sahəni təhlil edəcək: birincisi, əsas nitq hissələri ilə köməkçi nitq hissələri arasındakı oxşar və fərqli cəhətlər və ikincisi, cümlədə nə üsullarla tapa bilərik. Mühazirənin birinci hissəsi üçün sizi iki qrupa bölürəm. Yeni dərsimizin birinci hissəsi ilə bağlı dərsi keçmədən nələri bilirsiz yada salın. Ayrılıqda keçirilib. İlk öncə özünüz oxşar və fərqli cəhətləri ilə bağlı hər iki qrup siyahı hazırlayın. Buna görə sizə üç dəqiqə vaxt verirəm".

Üç dəqiqə sonra hər iki qrup fikirlərini bölüşür. Müəllim bir neçə fikri lövhədə yazır və uşaqların köməyi ilə qruplaşdırır.

Sonra isə müəllim mühazirənin birinci hissəsinə başlayır. Hər iki qrup həm öz siyahısına baxır, həm lövhəyə, həm də müəllimin danışığını təfəkküründə canlandırır. İkinci hissə həm bu qayda ilə, həm də fərqli qaydalarla keçirilə bilər. Hər bir fənn şagirdi şəxsiyyət kimi formalaşdırmağa xidmət edir. Müəllimlə şagirdin birgə əməkdaşlığı bütün fənlərə yansıyır. Xüsusilə humanitar və ictimai elmlər bu problemin həllində daha çox rol oynayır.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

**Nailə Əliyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
aliyevanaile98@gmail.com

# AŞIQ ƏLƏSGƏR QOŞMALARINDA SAF DUYĞULARIN TƏRƏNNÜMÜ VƏ SUFİ GÖRÜŞLƏRİN TƏDRİSİ

***Açar sözlər:*** *qoşma, təcnis, müxəmməs, gözəlləmə, rədif, qafiyə, sufi.*
***Keywords:*** *addition, tajnis, mukhammas, beautification, radif, rhyme, sufi.*

Aşıq Ələsgərin çoxşaxəli poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi dəyərlərimizə həmişə qədirbilənliklə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın 150 illik yubiley mərasimi hələ sovetlər vaxtında dövlət səviyyəsində qeyd edilmiş və azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə qəbirüstü abidəsi ucaldılmışdır. Ulu Öndər Heydər Əliyevin sərəncamına əsasən, Aşıq Ələsgərin 175 illik yubileyi dövlət səviyyəsində 1997-ci ildə qeyd edilmişdir. Bu, Heydər Əliyev tərəfindən Aşıq Ələsgər yaradıcılığına və qədim el sənətinə göstərilən yüksək qayğıdır.

Yaradıcılığa Səhnəbanunun eşqi ilə başlayan aşıq incə qəlbli, gözəllikləri duyan, onu vəsf etməyi bacaran böyük sənətkar olub.

Aşıq Ələsgər sənət aləminə zəngin irs qoyub getmişdir. Lirik şeirlərdən ibarət olan bu irsə aşığın əsasən qoşma, gəraylı, təcnis və müxəmməsləri aiddir. Buraya saf və təmiz

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

məhəbbətin tərənnümünə, vətən təbiətinin təsvirinə, el gözəllərinin tərifinə, əxlaqi-tərbiyəvi fikirlərin təbliğinə və nəhayət ictimai eyiblərin tənqidinə həsr olunmuş şeirlər daxildir. "Aşıq Ələsgər böyük bir nasehdir. Onun yaradıcılığının əksər hissəsi oxucuya (dinləyiciyə) tərbiyəvi fikirlər aşılayır" (Aşıq Ələsgər, 2004: 20).

Aşıq Ələsgər yaradıcılığında yer alan saf duyğuların və sufi görüşlərin tədrisi zamanı şagirdlərə onun bədii irsində yer alan janrlar və bu janrların əhatə etdiyi mövzular haqqında ilkin, nəzəri biliklər verilməlidir. Bu bilikləri tədris edən müəllim Aşıq Ələsgərlə yanaşı, digər sənətkarların da bu mövzularda yazdığı sənət nümunələrinə nəzər yetirməli, müqayisə edərək şagirdlərə çatdırmalı və müxtəlif sorğu vasitələri ilə onların bu biliklərə nə dərəcədə yiyələndiklərini müşahidə etməlidir. Bununla da şagirdlərdə müqayisəli metod anlayışı formalaşmış olur.

Aşıq Ələsgər poeziyası bədii dil xüsusiyyətlərinə görə xeyli zəngindir. O, öz əsərlərində Azərbaycan dilinin tükənməz, aşıb-daşan söz dəryasından məharətlə istifadə etmiş, poeziyamıza rəngarənglik və yenilik gətirmişdir.

Aşıq Ələsgər yaradıcılığında qoşma daha böyük üstünlük təşkil edir. O, əsl qoşma ustadıdır. Bu qoşmaların bir hissəsi təmiz sevgi duyğularının, el gözəllərinin təsvirinə həsr edilmişdir. Hətta qoşmalarının bir çoxunu bu gözəllərə müraciətlə yazmışdı. Onların adları isə rədif kimi qafiyələrdən sonra işlənmişdir. Aşığın «Güləndam», Gülpəri»,«Bəyistan», «Sarıköynək»,«Telli» və s. kimi qoşmaları buna bariz nümunələrdir.

Gözəlləmə adlanan bu nümunələrdə Aşıq Ələsgər gözələ aid bütün zahiri əlamətlərin real təsvirini verərək, gözəlin məlahət və incəliyindən söhbət açıb heyranedıcı gözəllik

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

tablosu yaratmışdır. Qoşmalarında saf duyğularla tərifini etdiyi gözəllər zahirən nə qədər gözəl olsa da, aşıq onlardakı bu xüsusiyyəti tam hesab etmirdi. Ona görə gözəllər mənən də gözəl olmalıdır. Onun qoşmalarında həm də əxlaqi-tərbiyəvi fikirlər, igidlik, qəhrəmanlıq, dostluq, mərdlik, mehribanlıq kimi yüksək mənəvi keyfiyyətlər, insani sifətlər təbliğ olunur. Bu şeirlərdə igidlik və qəhrəmanlıqdan, dostluqdan mücərrəd şəkildə deyil, konkret bir anlayış kimi bəhs olunur. Dostluqdan söhbət açarkən aşıq yalnız səmimi, təmənnasız və yalansız dostluğu nəzərdə tutur. Onun fikrincə, əsl dost dostunun yolunda ölümə belə getməyə hazır olmalıdır. Azərbaycanın, doğma vətənin füsunkar, göz oxşayan təbiətinin təsviri də onun qoşmalarından yan keçməmişdir. Sənətkarın qoşmalarında öz əksini tapan saf duyğular orta məktəb şagirdlərinə aşılanan əxlaq, sevgi, gözəllik, hörmət və s. kimi məsələləri özündə ehtiva edir.

Aşıq Ələsgərin bəzi qoşmalarında sufizmin təsirini açıq-aydın görmək mümkündür. Allahı ali həqiqət kimi dərk edib anlamağa əsaslanan sufilik, ruhun öz mahiyyətini başa düşüb dərk etməyinə yönəlib. Aşıq Ələsgər də öz qəlb dünyasının kamilliyini Allaha olan eşqində görür. Aşıq Ələsgərin şeirlərində öz əksini tapan sufilik dövrünün ruhanilərini narahat edirdi. Lakin bütün çətinliklərə baxmayaraq sufilik təriqətinə-ilahi eşqinə sadiq qalırdı. Dədə Ələsgərin "Ay nədən oldu?" bağlaması başdan-ayağa sufilik ruhunun daşıyıcısıdır.

"Yeddi qat göy nə növünən quruldu,
Neçə qəndil, neçə sütun vuruldu ?"

Sufizmdə "yeddi qat göy" - yeddi planet olaraq xatırlanır. Bu sualı Ələsgər "Qurani-Kərim"ə əsaslanaraq verirdi. Aşıq

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

Ələsgər sufi inamını həmçinin aşıqlıq sənəti haqqında tövsiyələrində də tətbiq edirdi. Onun məşhur olan bu tövsiyələrini aşıqlar əzbər bilirdi. Hətta onun şeirlərinin birində qeyd etdiyi “mərifət elmi” ifadəsi əslində sufiliyin icad etdiyi termindir.

Ustad aşığın yaradıcılığında “ürfan” bir mənəvi dəyər kimi geniş istifadə olunub. Bu qaynağa əsasən ariflik məsələsini və ürfan dəyər konseptini ətraflı təhlil etmək və onun milli-mənəvi dəyərlər sistemindəki rolunu, milli şəxsiyyətini müəyyən etməyindəki yerini aydınlaşdırmaq olar.

Aşıq Ələsgər sənətində “ürfan” mənəvi dəyər konsepti kimi arxaikləşmişdir.

Cəmiyyətdə olan müasirləşmə və müxtəlif siyasi məsələlərin ənənəvi mədəni dəyərləri sıradan çıxarması ürfan təliminin real ictimai tərbiyə formasına keçidini şərtləndirib.

Bununla da, aşığın bədii irsində sufizmin süqutu, bitmiş bir təsəvvüf dövrünün qalıqları, ürfan təliminin susqun vəziyyəti müxtəlif məlumat resursları ilə müşahidə edilir.

## Ədəbiyyat

1. Aşıq Ələsgər. (2004). Əsərləri. Bakı: “Şərq-Qərb”, 400 s.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

**Xanım Məmmədova**
Lənkəran Dövlət Universiteti
magistrant
xanimmammadova418@gmail.com

# B. VAHABZADƏNİN "ŞƏHİDLƏR" POEMASININ TƏHLİLİ

***Açar sözlər:*** *şəhidlər, azadlıq, xalq, 20 Yanvar, qəhrəmanlıq*
***Keywords:*** *martyrs, freedom, people, January 20, heroism.*

Bilikləri şagirdlərə hazır şəkildə verən ənənəvi təlimdən fərqli olaraq, kurrikuluma əsaslanan təhsil sistemində əsas məqsəd hərtərəfli inkişaf etmiş şəxsiyyətyönümlü fərd yetişdirməkdir. Bu baxımdan məktəbin ədəbiyyat dərslərində tədris olunan mövzuların əhəmiyyəti böyükdür. B. Vahabzadənin "Şəhidlər" poemasının tədrisi zamanı şagirdlər müstəqil şəkildə müəyyən edirlər ki, ədibin həyat və yaradıcılığına kollektivləşmə əleyhinə olan üsyanlar, rus ordusu tərəfindən igid oğulların qətli, atası və əmilərinin həbsi böyük təsir göstərmişdir. Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Qarabağ münaqişə ocağına çevrilərkən B. Vahabzadə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, onun çağırışları xalq mitinqlərində yüz minlərlə insanın qarşısında eşidilmişdir. Qanlı 20 Yanvar hadisələri ədəbiyyatımıza faciəli mövzular gətirdi. Bu hadisələrin başladığı vaxt sanballı əsərlərin yazılması çox çətin idi. Bu dövrün ədəbiyyatının ikili xarakter daşıması - həm xalqın ayrıldığı sovet dövrünün əlamətlərini özündə daşıması, həm də bu qalıqlara qarşı mübarizə apararaq özünü ifadə etməyə çalışması

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

ədəbiyyatımıza da təsirsiz ötüşməyə bilməzdi. Xalqın taleyini hər zaman düşünən B. Vahabzadə tərəfindən qələmə alınan XI sinif ədəbiyyat proqramında tədrisinə 2 saat vaxt ayrılan "Şəhidlər" poeması 1990-cı il qanlı yanvar hadisələrinə həsr olunmuşdur. Müstəqillik dövründə yazılan bu poema ayrı-ayrı hissələrdən ibarət olsa da, əsərdə bütövlükdə bir hadisədən doğan acı həqiqətlər əks olunmuşdur. Bu əsərdə verilən bütün suallarla dövrün məşəqqətli, hüznlü tarixi gözlər önündə canlanır. Bu poemada 20 Yanvar şəhidlərinin azadlıq, müstəqillik uğrunda mübarizəsi, qəhrəmanlıqları tərənnüm olunmuş, günahsız insanların qətlinə səbəb olanların isə xalq nifrəti ilə qarşılaşdığı öz əksini tapmışdır (Həbibbəyli, Əliyev, Həsənov, Mustafayeva, 2018: 212).

20 Yanvar faciəsinə hərtərəfli siyasi qiymət verən H. Əliyevin sədrliyi ilə keçirilmiş Naxçıvan MR Ali Məclisi 1991-ci il noyabrın 21-də qəbul etdiyi qərarda bu faciəni BMT-nin İnsan Hüquqları Bəyannaməsinin kobud şəkildə pozulması faktı hesab edirdi. (Hüseynova, 2008: 670).

Şagirdlərə "Bu qətliamı törədənlərə və onun qurbanlarına qarşı sizdə hansı hisslər yarandı?" kimi suallar verməklə əsərin ümumi məğzi haqqında onlarda təsəvvür yaratmaq mümkündür. Debat nəticəsində şagirdlər bu suala belə cavab verə bilərlər: "Bu poemada 20 Yanvar şəhidlərinin azadlıq, müstəqillik uğrunda mübarizəsi, qəhrəmanlıqları tərənnüm olunmuş, günahsız insanların qətlinə səbəb olanların isə xalq nifrəti ilə qarşılaşdığı öz əksini tapmışdır".

Bu misraların təhlili zamanı şagirdlər şairimizin tarixi min illiklərə dayanan, lazım gəldikdə başqalarına arxa-dayaq olan millətimizi uca dağa, istilaçıları isə təpələrə və alçaqlıqlara bənzətməsinin şahidi olur. Şagirdlər müəyyən edirlər ki, şair ölkəmizin sovetlərdən asılığını "talaqsız nigah"la müqayisə

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

edir. Birtərəfli, razılığı olmadan bağlanan nigah insanda hansı hissləri oyadırsa, xalqımızın da razılığı olmadan düşmən boyunduruğuna məhkum edilməsi insanda eyni ikrah hissləri oyadır.

Xalqımızın əzəldən şah olması, indi isə müstəqilliyini itirərək qula dönməsi, neçə əsrlik tarixinin unudulması, özünün köməyə ehtiyacı varkən, başqalarının əmrinə tabe olması, yalnız bir haqq varkən düşmənin ona Allah olması necə də kədərli səslənir.

Qatillər o qanlı 20 Yanvar gecəsi təkcə silahsız-sursatsız xalqı deyil, həqiqəti, haqqı da mərmi atəşinə tutmuşdur. Ulu babaları, ataları sovetlər ölkəsi uğrunda şəhid olanların övladlarını həmin gecə həmin rus ordusu qanına qəltan elədi. Ulu babalarımızın yadigarları o qanlı gecə şəhid oldu. “Lakin bu qırğın xalqın iradəsini qıra bilməmişdir.

Yanvar qırğınının səhəri günü Moskvadakı Azərbaycan səfirliyinə gəlib sovet rəhbərliyinin cinayət əməllərini qətiyyətlə ifşa edən H. Əliyev Azərbaycan xalqının bu ədalətli mübarizəsinin – Qurtuluş savaşının önünə keçmişdir” (Vahabzadə, 2004: 327).

Bu misralarda 1990-cı il 20 yanvar qətliamına həsr olunan Zabul segahından da söhbət açılır. Ədib poetik bir dillə 20 yanvar şəhidlərinin xatirəsinə səsləndirilən Zabul segahını şəhidlərin fəryadından, ana və gəlinlərimizin harayından yoğrulan səs adlandırır. Şair Zabul segahını ifa edən Zakirdən xahiş edir ki, tarı yavaş çalsın, çünki onun pərdələri haqsız yerə tökülən bu qədər qana, böhtana, ah-naləyə dözməz.

Qanlı yanvar şəhidlərinin əziz xatirəsinə kasıb, varlı demədən bütün məmləkətdə yas mərasimləri quruldu. Elə bil, məhz, bu matəmlə xalqımız qatildən öz intiqamını alırdı. 40 gün yas saxlamaq, işə çıxmamaq idi bizim üsyanımız. Əsərdə,

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

həmçinin, qərənfilin şad günlərdə, toy-büsatda sevinc rəmzi olması əks olunur. Lakin 1990-cı il 20 yanvar qırğınından sonra qərənfil artıq hüznün simvolik rəmzinə çevrildi. Qərənfil və qara bayraq birgə xalqımızın hüznünə qan ağladılar. Şəhidlərin məzarı xalqın göz yaşları ilə islandı. Sözü ürəkdə qalan, haqqı yad əllərdə qalan, öz diyarı özünə qürbət olan xalqımızı dövran qorxudub. Deməli, hələ də Stalin rejimindən gələn qorxu davam edir. Lakin X.R.Ulutürk kimi sözünü üzə deyən ədiblərimiz zindanda belə doğrunu yazmaqdan əl çəkmirdilər. Sovet rejiminin istilaları faşizmin ölmədiyini, hələ də yaşadığını göstərirdi.

Vahid süjet xətti olmayan bu lirik poema heca vəznində qələmə alınmışdır. Milli azadlıq nümunəsi olan bu əsər ümumilikdə nikbin sonluqla bitir. Əsərdə azadlığın əbədi olacağına, şəhidlərimizin qanının yerdə qalmayacağına, üçrəngli bayrağın daim Vətən səmalarında dalğalanmasına böyük inam öz əksini tapmışdır.

Xalqımızın ədəbi-mədəni irsini, tarixi keçmişini, apardığı mübarizələri, adət-ənənələrini öyrənməkdən ötrü etibarlı qaynaq hesab olunan bədii söz ən qüdrətli tərbiyə vasitələrindən biridir. Məhz "Şəhidlər" poemasının təhlili zamanı da qeyd olunanlar diqqət mərkəzində saxlanılmalı, təşəbbüskar, yaradıcı humanist gənclərin tərbiyə edilməsi sosial tələb kimi yadda saxlanılmalıdır (Həbibbəyli, Əliyev, Həsənov, Mustafayeva, 2018: 212)

## Ədəbiyyat

1. Həbibbəyli. İ., Əliyev. S., Həsənov. B., Mustafayeva. A. (2018). Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı: "Bakınəşr", 212 s.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

2. Hüseynova. İ. (2008,). Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, 670 s.
3. Vahabzadə, B. (2004). Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: "Öndər Nəşriyyat", 327 s.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

**Lala Alieva**
Ganja State University
aliyevalala.114@gmail.com

# THE INTERACTIVE METHOD AS ONE OF THE LEADING FORMS OF MODERN LEARNING

***Keywords:*** *education, student, teacher, lecture, interactive learning*
***Açar sözlər:*** *təhsil, tələbə, müəllim, mühazirə, interaktiv tədris*

The need of modern society in specialists capable of initiative, independence, commitment to activity on the basis of high motivation, social activity, creativity, professional mobility, provided by the active position of the individual in the learning process.

Pedagogy today uses both traditional and modern methods of teaching. The very high-quality and effective model of the educational system of the last century, when children received good knowledge, is obsolete for today's world. In today's world, new technologies are constantly developing, and scientific and innovative discoveries are being made.

Modern approaches to active learning in higher education show that today education should be carried out not as a transfer of experience from teacher to student, but as their interaction on the basis of cooperation. This confirms the relevance of the problems of implementing active learning methods in the system of higher professional education.

The need to implement more effective and efficient teaching methods, first of all, creates the need for teachers themselves to be constantly trained. The teacher's personality,

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

leadership skills, ability to enthuse, personal example, and contact with students are all components of success in the application of modern teaching methods. Modern research studying the methods of active learning, proves that the active method makes the one who uses it. Thus, they make it clear that the active activity of the teacher promotes the cognitive activity of students.

A university lecture is the main link in the didactic cycle of learning. Its goal is to form a guiding framework for students' subsequent assimilation of educational material. In the learning process, especially in the study of humanities disciplines, there are a number of situations when the lecture form of teaching cannot be replaced by any other.

A lecture is a creative process that involves both the lecturer and the students. The main task of listening to lectures is to learn to think, to understand the ideas presented by the lecturer (1).

Currently, along with supporters there are opponents of lecture presentation of educational material, who believe that the lecture induces a passive perception of others' opinions, inhibits independent thinking, is necessary only in the absence of textbooks, and in general, many students in the lecture only have time to mechanically record the words of the lecturer. However, experience shows that the refusal of lectures reduces the scientific level of students' training, disrupts the systematicity and uniformity of work during the semester. Therefore, the lecture continues to be the leading form of organizing the educational process in higher education. We believe that the above drawbacks can be largely overcome by using the so-called non-traditional forms of lectures, especially interactive ones: lectures - visualizations, problem lectures, double lectures etc.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

Interactivity is a way to improve the culture of thinking and speech of students, which encourages them to think, discuss, perform problem tasks.

When using interactive teaching methods in the classroom a special atmosphere of creative activity is formed - a creative environment, which is a living space in which occurs professional and personal formation of the individual, the development of his creative abilities, thinking and cognitive activity, the ability to work independently (Banasikovska. Y. 2013).

Interactive learning involves the activity of all participants in the educational process. After all, interactivity involves the inclusion of students in a common group activity, in which there is an expansion of consciousness, influence on attitudes and values, reorientation of attention from their own self to another person. In the process of interactive interaction, the development of the cognitive, emotional and behavioral spheres of personality is carried out more intensively - in contrast to "traditional" (reproductive) learning. And, accordingly, develop more effective models of activity and behavior.

That is why interactive teaching methods are increasingly recognized in the global pedagogical practice.

In conclusion, it is necessary to highlight the fact that interactive forms of learning provide high motivation, strength of knowledge, creativity and imagination, communication skills, an active lifestyle, team spirit, the value of individuality, freedom of expression, the emphasis on activity, mutual respect and democracy.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

## References

1. https://lectera.com.ru
2. Banasikovska Y. (2013). Znacheniye aktivnix metodov prepodovaniya dlya povisheniya effektivnosti obucheniya. Vestnik NQUEU.

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 32-34
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 32-34
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

**Yasər Rüstəmov**
Lənkəran Dövlət universiteti
yaser0516668211@gmail.com

# CƏLİL MƏMMƏDQULUZADƏNİN "ANAMIN KİTABI" ƏSƏRİNİN TƏHLİLİ VƏ TƏDRİSİ METODİKASI

***Açar sözlər:*** *"Anamın kitabı", təhlil, tədris, yeni təlim üsulları*

***Keywords:*** *"My mother's book", analysis, teaching, new teaching methods*

Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərinin əsasını böyük bəşəri ideyalar təşkil edir. Əsərdə qoyulmuş dilimizə, milli varlığımıza qarşı yönəldilmiş yad təsirlər, dini sxolastik təlim, təhsil, tərbiyə, qadın hüquqsuzluğu, xeyriyyə cəmiyyəti və s. kimi məsələlər indi də bu və ya başqa dərəcədə, əhəmiyyətini, aktuallığını qoruyub saxlamaqdadır. Bu məsələlər barədə şagirdləri maarifləndirmək, düz yolu göstərmək hər bir müəllimin peşə borcudur.

Ənənəvi tədrisə əsasən XI sinif proqramında 2 saat məzmun üzrə, 2 saat isə təhlil üzrə iş aparılmaqla "Anamın kitabı" tragikomediyasının tədrisinə 4 saat vaxt ayrılmışdır.

Məzmunun mənimsədilməsi üçün əsərin bir hissəsi danışılır, məlumatın bir qədər nağıl edilməsinə yol verilir. Zəruri bir sıra informasiyalar verildikdən sonra əsərin oxusu üsulunu tətbiq edirik. Qeyd edək ki, dram əsərlərinin oxusu zamanı ən çox tətbiq edilən üsul rollar üzrə oxudur. Və oxuya ayrılmış vaxt tamamlandıqdan sonra biz suallar vasitəsilə onların necə mənimsədiklərini dəqiqləşdirməyə çalışırıq.

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

Bununla da eyni zamanda yeni biliyin möhkəmləndirilməsinə yol verilir.

Ev tapşırığı olaraq şagirdlərə bu mövzunun kitabxanalara və ya hər hansı mənbələrə müraciət etməklə ən azından ixtisarla olan variantını oxumaq, lüğət dəftərlərinə çətinlik çəkdikləri sözləri yazmaq və bugünkü dərsi öyrənmək tapşırılır.

Mövzu: C. Məmmədquluzadə. "Anamın kitabı" - 5 saat.

Təhlil dərsi.

Biz təhlil üzrə bir sıra məsələləri aydınlaşdırmalıyıq. Sizə mövzunun mahiyyəti ilə bağlı deyil, öz fikirlərinizi əsaslandırmanız üçün suallar verəciyik:

- Qardaşların başlıca problemləri nə idi?
- Vətənə bağlı olan, xalqı təmsil edən obrazlar kimlər idi?
- Nəyə görə Gülbaharı "ziyalı" təbəqə deyil, çobanlar maraqlandırırdı?

Şagirdlərin cavabları dinlənilir:

Qardaşların ən birinci problemi onların ana dilini bilməmələri idi. Bu baxımdan da Gülbahara nitqlərini başa düşmədikləri həmin "intelligent" təbəqə maraqlı gəlmirdi. Burada vətən obrazını Zəhrabəyim ana təmsil edir. Gülbahar və çobanlar da onun bir parçası sayılır (Hüseynoğlu, 2015: 26).

Cavablar dinlənildikdən sonra yeni dərs, yəni təhlil dərsi barədə məlumat veririk. Biz təhlil dərsinin nə olduğu, orada əsərə hansı istiqamətdə yanaşmalı olduğumuz, əsərdə başlıca konfliktlərə, qarşıdurmaya nəzər yetirməli olduğumuz haqqında informasiya veririk. Bundan sonra şagirdlərdən verdiyimiz istiqamətdə cavabları dinləyib dərsi daha da möhkəmləndiririk. Sonra ev tapşırığının verilməsinə keçid alırıq.

Ev tapşırığı: Əsərin təhlilinə hazırlaşın. Təhlil dərsi üçün bu suallar üzərində işləyin:

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

- Mövzunun bu günümüzlə əlaqəsi varmı?
- Qardaşların ortaq fikrə gələ bilməməsinə mane olan nə idi?
- Nə zaman insan öz ailəsindən, xalqından ayrı düşür?
- Sizcə, ayrılıq sadəcə məsafələrləmi bağlıdır?
- Ana və Gülbahar obrazlarını təhlil edin ("Ədəbiyyat" dərsliyi 11-ci sinif, 2018: 28).

Cəlil Məmmədquluzadə irsinin ən aktual problemlərini - vətən, dil, millət problemlərini özündə əks etdirən tragikomediyası ümumtəhsil pilləsinin 11-ci sinif proqamına daxil edilmişdir. Təbii ki, bu əsərin məhz bu siniflərdə keçirilməsi də təsadüfi xarakter daşımır. Belə sanballı və bir neçə dəyərləri özündə əks etdirən mövzunun öyrənilməsi və qavranılması, təhlilə cəlb olunaraq mənimsənilməsi məhz yuxarı siniflərdə reallaşa bilərdi.

## Ədəbiyyat

1. Hüseynoğlu. S. (2015). "Yeni təlim texnologiyaları və ədəbiyyat dərslikləri". "Azərbaycan dili və ədəbiyyatı tədrisi". Elmi-metodik jurnal. №2 (aprel-iyun). s.25-31.
2. Ədəbiyyat" dərsliyi 11-ci sinif. (2018). Bakı, Trims.edu.az. 208 s.

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 35-37
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 35-37
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Aygün Sərdarova**
Azərbaycan Dövlət Aqrar Univerisiteti
biologiya üzrə fəlsəfə doktoru
aygunsardarova@mail.ru

## RESPUBLİKAMIZ ƏRAZİSİNDƏ YAYILMIŞ SİTRUS (*CITRUS*) BİTKİLƏRİNİN VEGETATİV ORQANLARININ ANATOMİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *dorzoventral, anatomik, kollateral, sitrus, sxizogen, lizigen*
***Keyword:*** *dorsoventral, anatomical, collateral, citrus, schizogen, lysigen*

*Citrus* bitkiləri tropik və subtropik iqlim amillərinə məxsus ərazilər üçün xarakterik flora nümayəndələridir (Guohong, 2017: 317) *Citrus* bitkiləri, əsasən də portağal (*Citrus sinensis*), limon (*Citrus limon*), naringi (*Citrus reticulata*) Azərbaycan Respublikasının Cənüb bölgəsi olan Lənkəran şəhəri ərazilərində geniş şəkildə becərilir. Biz də tədqiqat məqsədi ilə Lənkəran ərazisində yayılmış bu sitrus bitkilərindən nümunələr götürərək mikroskopik təhlillər aparmışıq.

Ümumiyyətlə qeyd edə bilərik ki, respublikamız ərazisində yayılmış *Citrus* bitkilərinin anatomik xüsusiyyətləri haqqında tədqiqat işləri aparılmayıb. Bunu nəzərə alaraq respublikamızın Cənub bölgəsində becərilən və insan orqanizmi üçün çox faydalı təsirə malik olan sitrus bitkilərinin vegetativ orqanlarının anatomik quruluşunu öyrənməyi çox aktual hesab

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 35-37
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 35-37
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

edirik. Məlumdur ki, sitrus bitkiləri vitamin C mənbəyi kimi qiymətləndirilir. Eyni zamanda bu bitkilərin meyvəsinin qabıq hissəsində sxizogen xarakterli ifrazat toxumalarında efir yağ lokalizasiya olunur. İstər qədim dövrlərdə, istərsə də müasir dövrdə insanlar tərəfindən immun sisteminin möhkəmləndirilməsi məqsədi ilə sitrus bitkiləri qida rasionunda ilk yerləri tutur. Dərman bitkiləri, ekoloji təmiz məhsul kimi insanların daha çox müalicə məqsədi kimi istifadəsində mühüm yer tutur. Qeyd edək ki, sitrus bitkilərində olan efir yağları həmçinin aromaterapiyada geniş istifadə olunur.

Əsasən də portağal bitkisi daha perspektivli kimi qiymətləndirilir. Bunları əsas tutaraq sitrus bitkilərinin anatomik xüsusiyyətlərini də öyrəndik ki, bu bitkilərin əhəmiyyətini artıran və özündə bioloji aktiv maddə toplayan lizigen sxizogen ifrazat yerliklərin hansı toxumaların tərkibində əmələ gəlməsini müəyyənləşdirək (Sərdarova, 2022: 831)

Eyni zamanda mikroskopik tədqiqatlarla müəyyən etdik ki, respublikamız ərazisində yayılmış bu sitrus bitkilərinin vegetativ orqanlarında örtücü, ötürücü, mexaniki törədici, əsas və ifrazat toxumasının quruluşu və əmələ gəlmə qanununa uyğunluğu necədir (Qasımov, Əliyeva, Tahirli, Abdullayeva, 2010: 57).

Anatomik tədqiqatlarla öyrəndik ki, sitrus bitkilərinin yarpağı dorzoventral quruluşdadır, kökdə ikinci qalınlaşma baş verməmişdir, gövdədə ötürücü sistem çox yaxşı inkişaf etmişdir və açıq kollateral xarakterlidir (Sərdarova 2022: 422)

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

## Ədəbiyyat

1. Guohong. A. (2017). "Sitrus meyvələrinin mənşəyi və təkamülünün genomikası". Təbiət. 554, 317–324.
2. Sərdarova. A.S. (2022). Əczaçılıq Botanikası. Bakı: s.852. Bakı Univerisiteti, 831-838.
3. Qasımov. N.A., Əliyeva. N.Ş., Tahirli. S.M., Abdullayeva. S.M. (2010). Bitki anatomiyası. Bakı: s.387. Bakı Univerisiteti, 57-65.
4. Sərdarova. A.S. (2022). Dərman bitkilərinin anatomiyası. Bakı: s.678. Bakı Univerisiteti, 422-437.

**IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları**
**7 iyun 2023 / 38-44**
**Materials of the IV International Conference of the Foundations of Science and Education**
**7 june 2023 / 38-44**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

**Məhsəti Ələkbərova**
Azərbaycan Dövlət Aqrar Universiteti
Aqrar elmlər üzrə fəlsəfə doktoru
alekberova_1979@mail.ru
**Fəridə Aslanova**
Azərbaycan Dövlət Aqrar Universiteti
doktorant
farida_aslanova_93@mail.ru

# GÖYGÖL RAYONUNUN ƏRAZİSİNDƏ MÖVCUD OLAN ÜZÜM SORT VƏ GENOTİPLƏRİNİN TƏRKİBİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** *V.ampelocissus Planch, V.Amurensis Rupr., yabanı üzüm, introduksiya*
***Keywords:*** *V.ampelocissus Planch, V.Amurensis Rupr., wild grapes, introduction*

Azərbaycan üzüm bitkisinin ən qədim yaranma və formalaşma mərkəzlərindən biri olmaqla qədim üzümçülük və şərabçılıq diyarıdır. İndiki Azərbaycan ərazisində üzümün becərilməsinin qədimliyini çoxsaylı ədəbiyyat məlumatları, eləcə də arxeoloji qazıntılar zamanı tapılmış zəngin qədim əşyalar, maddi-mədəniyyət abidələri, üzüm bitkisinin müxtəlif vegetativ orqanlarının, həmçinin üzüm və şərabçılıq məhsullarının qalıqları sübut edir. Dünya miqyasında, o cümlədən Azərbaycanda, üzümkimilər fəsiləsinin sitematikası, həmçinin üzüm sortlarının aqroekoloji yayılma xüsusiyyətləri kifayət qədər geniş tədqiq olunmuşdur (Abduləliyeva, 2014: 191; Quliyev, 2017: 10-12 ). Bu fəsiləyə aid olan üzüm sortları Azərbaycanın bütün rayonlarında yayılmışdır. Göygöl rayonu da Azərbaycanda üzümçülük geniş yayılan ərazilərdəndir.

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 38-44
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 38-44
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

Respublikamızın digər dağətəyi rayonlarında olduğu kimi, Göygöl rayonunun da iqlim göstəriciləri yüksəklik üzrə dəyişir. Dağətəyi ərazilərdə və alçaq dağlıqda qışı quraq keçən mülayim-isti, orta dağlıqda qışı quraq keçən soyuq, yüksək dağlıqda isə dağ tundra iqlimi hakimdir. Havanın orta illik temperaturu rayon ərazisində müsbət $10^0$ C-dən yüksək olduğu halda bəzi yüksək dağlıq zonada $0^0$C-dir. İllik yağıntıların miqdarı mümkün buxarlanma kəmiyyətinin 50–100 %-ni təşkil edir. Havanın temperaturu 10 dərəcədən artıq olan temperaturların cəmi $3000–4000^0$C arasındadır. Orta illik $12–14^0$C, yanvar $-1^0$C şaxta, iyul $24–25^0$C isti, yağıntılar 500–900 mm-dir. Yağıntılı dövr yaz və payızın əvvəli, quraq dövrü isə qışdır. Qışı əsasən mülayim keçir və qar örtüyü o qədər də davamlı deyil. Bu ərazidə ən məhsuldar qiymətli süfrə üzüm sortu Təbrizi və texniki üzüm sortu olan Bayanşirə, Mədrəsə, Şirvanşahı, üzüm sortları geniş yayılmışdır. Rayon ərazisində həm süfrə, həm də texniki istiqamətli üzüm sortları becərilir (Səlimov, Şükürov, 2018: 56; Ələkbərova, 2019: 176-181; Volynkin, Polulyakh 2018: 16-18).

2017-2018-ci illərdə Göygöl rayonunun Ağsu, Aşıqlı, Balçılı, Bəhrambəy, Bənövşəli, Cümşüdlü, Çaykənd, Çaylı, Çiçəkli, Damcılı, Danayeri, Dərələyəz , Dozular, Əlimədədli, Əzgilli, Göyçəkənd$^X$, Haçaqaya, Xaqani, Xasabağ$^X$, Keşkü, Kərəmli, Qarabulaq, Qırıqlı, Qızılca, Quşçu, Quşqara, Mollacəlilli$^X$, Nadil$^X$, Pənahlılar, Sarısu, Səfikürd, Səmədli, Sərkar, Şəhriyar, Toğanalı, Topalhəsənli, Tülallar, Üçbulaq, Üçtəpə, Yalqışlaq, Yeni Qızılca, Yeni Zod, Zurqes kəndlərində fərdi olaraq elmi ekspedisiyalarda olunmuş, həyətyanı sahələrə, ərazinin üzüm becərilən ərazilərinə baxış aparılmış, becərilən üzüm sortlarınını siyahısı hazırlanmışdır. Məlum olmuşdur ki, Göygöl rayonunun üzüm plantasiyalarında Kaberne-Sovinyon 154.7 ha, Şardane 76.66 ha, Sovinyon blank 20.20 ha, Sapiravi

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

30.92 ha, Rkasteli 16.07 ha, Mədrəsə 3.24 ha, Ağ Muskat 7.02 ha, Bayanşirə 18.27 ha, Pino nuar 26.56 ha, Merlo 61.44 ha, Qrenaj 13.45, ha, Sürah 56.73 ha, Uni-blank 11.37 ha, Sultaniyə 2.35 ha, Prima 6.07 ha təşkil edir. Qeyd edək ki, Xasabağ kəndində 15 ha kişmişi, Mollacəlilli kəndində 500 ha (Azərinvest 300 ha və Göygöl şərab 200 ha) üzüm plantasiyaları vardır. Göygöl rayonunda "Azəraqroinvest" MMC-yə məxsus 295-300 hektar məhsuldar üzüm bağı vardır. Ümumiyyətlə, Göygöl rayonunda ümumi üzüm plantasiyalarının sahəsi 736.7 ha təşkil edir. Tədqiqat dövrü Göygöl rayonunun üzüm bağlarına baxış nəticəsində ərazidə aşağıdakı aborigen və XVII-XIX əsrlərdə daha çox Fransadan, Rusiyadan introduksiya edilmiş üzüm sortlarının yayıldığı aşkar edilmişdir. Göygöl rayonunun ərazisində üzüm sort və genotiplərinin tərkibi aşağıda verilmişdir.

*Süfrə sortları:* Ağ Xəlili, Azəri, Ağ şanı, Ağ Hüseyni, Ağ oval kişmiş, Çəhrayı tayfı, Təbrizi, Kardinal, Hüseyni, Hamburq muskatı, İsgəndəriyyə muskatı, Muskat Ottenel, Şasla, Qaraburnu, İtaliya muskatı, Prima, Parkent, Rişbaba, Üzümlüklərin kraliçası, Şabaş və s.

*Texniki sortlar:* Ağ pino, Ağ muskat, Aliqote, Göy-göl, Rkasiteli, Bayanşirə, Çəhrayı muskat, Boz pino, Saperavi, Reyn rislinqi, Qaragöz, Qara pino, Qara lkeni, Mədrəsə, Xindoqnı, Saperavi, Sovinyon, Kaberne Sovinyon, Şardone, Fetyaska, Malbek, Tavkveri və s.

**Yeni üzüm növləri.** Azərbaycan florasında üzümün iki növünə (*V. vinifera* L. və *V. labrusca* L.) təsadüf edilir. Burada *V.vinifera* növü isə mədəni (*Vitis vinifera ssp. sativa* DC.) və yabanı halda [*Vitis vinifera ssp. sylvestris* C.C. Gmel.) yayılmışdır. Məhz bu səbəbdən də Azərbaycan üzüm bitkisinin mənşə mərkəzlərindən sayılır. Yabanı üzümün 4 taksonomik qrupu ilə (*Vitis sylvestris var. typica* Negr., *Vitis sylvestris var.*

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

*aberrans* Negr., *Vitis sylvestris var. balcanica* Negr., *Vitis sylvestris var. tabasaranica* Negr. ) yanaşı, M.V.Amanov [2000-2007] uzun illər apardığı tədqiqatlar nəticəsində Azərbaycanda elmə məlum olmayan yabanı üzümün daha iki ııöv müxtəlifliyini aşkar etmişdir: a) *Vitis vinifera ssp. sylveslris var. Zangezur* Mail - Zəngəzur mahalının Mehri, Zəngəzur meşələrində geniş ərazilərdə yayılmışdır. Giləsi ağrəngli, xırdagiləlidir Hər gilədə 1-3, bəzi hallarda 2-4 toxum olur. b) *Vitis vinifera ssp. sylvestris* var. Alpan Mail-Quba rayonunun Alpan kəndinin meşələrində aşkar edilmişdir.

Göygöl rayonunun Yeni Zond–Hacıkənd ərazisində ilk dəfə olaraq yabanı halda *V.ampelocissus P. və V. Amurensis Rupr.* üzüm növləri aşkar edilmişdir (Şəkil 1; 2). Aşkar edilən bu növlər Şərqi Asiya üzüm qrupuna daxildir. Şərqi Asiya növləri Moldova, Ukrayna, Rusiyanın cənubu, Zaqafqaziya Respublikaları, Orta Asiya Respublikaları, Çin, Yaponiya, Koreya və Hindistanda yayılmışdır. Şərqi Asiya qrupuna çoxlu miqdarda növ daxildir ki, bunların içərisində ən çox əhəmiyyət kəsb edəni və Göygöl rayonu ərazisində aşkar edilən *Amurenzis – Rupr*-dur. Amur üzümünün qiymətli xüsusiyyətlərindən biri onun çox aşağı şaxtaya davamlılığı qabiliyyətinin olmasıdır.

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 38-44
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 38-44
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04



Şəkil1. *Üzüm növü-* *V.ampelocizus* J.



Şəkil 2. Üzüm növü- *V.amurensis* Rupr.

*V.Amurensis Rupr.*-Amur üzümü adlanan bu yabanı üzüm növü Yeni Zond kəndində fərdi həyətyanı sahələrdə geniş yayılmışdır. Demək olar ki, hər bir fərdi həyətyanı sahədə bu üzüm növünə rast gəlinir. Hazırda Yeni Zond kəndində bu üzüm növünün tənəklərinin diametri 15-20 santimetrə çatır. Tənəkləri talvar sistemində becərilir. Yarpaqların səthi tünd yaşıl rənglidir. Payızda isə yarpaqlar qırmızı rəng alır, ona görə də park, çardaq və divarların yanında bəzək məqsədi ilə əkilir.

Yabanı halda Amur üzümü çoxlu miqdarda barlı zoğlar əmələ gətirir (60 % və daha çox). Bar əmsalı 1,7-dir. Salxımları 50-70 qram kütlədə olur. Qara rəngli üzüm meyvəsi turşaşirin dada malikdir. Şirədə şəkərliliyi çox aşağıdır, turşuluğu çoxdur. Məhsulu noyabr ayında yetişir. Çox qədim dövrlərdən, həmçinin hal-hazırda da şaxtalara və xəstəliklərə çox dözümlü olan Amur üzüm növünün məhsulundan yerli əhali ev şəraitində şərab istehsalında geniş istifadə edirlər.

***Ampelocissus Planch.*** cinsinə daxil olan bitkilər 90 növü əhatə etməklə Asiya və Afrikanın isti tropik bölgələrində geniş yayılmışdır. Gilələri yüksək şəkər toplayır, lakin keyfıyyəti *Vilis* L. cinsinin növlərindən geri qalır. Bu cinsə daxil olan növlər fıllokseraya davamlılığı ilə seçilirlər. Əksərinin

**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

meyvələri adamlar tərəfindən həvəslə yeyilir və şərab hazırlanır.

Qeyd edək ki, *V.ampelocissus* dağlıq-meşəlik ərazidə kolluqlar şəklində yayılmışdır (Şəkil).

Respublikamızda becərilən üzüm sortlarının əksəriyyəti mənfi 18-20$^0$ C-dən aşağı şaxtalara dözmürlər. Həmçinin, hər il istehsal edilən məhsulun 35-70%-i müxtəlif xəstəlik və ziyanvericilərin təsiri səbəbindən məhv olur və xəstəlik və ziyanvericilərdən qorunmasına külli miqdarda vəsait sərf edildiyini nəzərə alsaq, Göygöl rayonunda yabanı halda aşkar edilən *V.ampelocissus P. və V. Amurensis Rupr.* üzüm növlərinin qiymətli seleksiya materialı olduğunun əhəmiyyətinə varmış olarıq.

***Qeyd**: X – üzümçülük sahələri olan kəndlər.*

## Ədəbiyyat

1. Abduləliyeva. S. Ş. (2014). Gəncə-Daşkəsən bölgəsi şəraitində İtaliya muskati üzüm sortunun aqrobioloji və təsərrüfat-texnoloji xüsusiyyətlərinin qiymətləndirilməsi: Aqrar elmlər üzrə fəlsəfə doktoru. dis. Gəncə, 191 s.
2. Quliyev. V.M. (2017). Üzümkimilər (vitaceae juss.) fəsiləsinin müasir təsnifati. Gəncə: Azərbaycan Dövlər Aqrar Universitetinin elmi əsərləri, № 3. s.10-12.
3. Səlimov. V.S., Şükürov. A.S. (2018). Üzüm: innovativ becərilmə texnologiyası, mühafizəsi və aqroekologiyası. Bakı, s.56.
4. Ələkbərova. M.M., Aslanova. F.A. (2019). Gəncə-Qazax bölgəsində Vitis Vinifera l. Novünə aid sortlarin müəyyən olunması. Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi "Xəbərlər Məcmuəsi". Gəncə, №3 (77). s.176-181

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

5. Volynkin. V. A., Polulyakh. A. A. (2018). Sovremennyye predstavleniya o sistematike vinograda. Yalta: “Magarach” Vinogradarstvo i vinodeliye, № 4. s.16-18.

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 45-49
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 45-49
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

**Aybəniz Hüseynova**
Azərbaycan Dövlət Aqrar Universiteti
aybenizhuseynova020@gmail.com
**Nailə Məmmədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
mammadova.naila1965@gmail.com
**Ceyla Rüstəmova**
Azərbaycan Dövlət Aqrar Universiteti
ceyla.rustemova.1990@mail.ru

# AZƏRBAYCANDA YETİŞDİRİLƏN QİYMƏTLİ ZEYTUN BİTKİSİ (*OLEA*)

***Açar sözlər*: *zeytun, dərman əhəmiyyətli, yağlılığı, zülal, məhsuldarlıq***

***Keywords:*** *olive, medicine importance, oilness, protein, productivity*

Qədim bağçılıq diyarı olan Azərbaycan dünyada özünün çox qiymətli meyvə, tərəvəz və qiymətli ağac bitkiləri ilə həmişə fərqlənib. Buna ilk növbədə ölkənin zəngin təbii şəraiti əsas olmuşdur. Dünyanın müxtəlif coğrafi şəraitində əmələ gəlmiş və ilk formalaşma keçmiş bitki cins və növlərinin burada özünə ikinci vətən tapması və təkrar formalaşma nəticəsində yeni növ və formaların yaranması bunu bir daha sübut edir.

Qida və dərman bitkisi kimi böyük maraq doğurur. Yağ zeytun ağacının əsas sərvətidir. 100 qram yetkin meyvənin enerji dəyəri 116 kaloridir. Zeytunlarda zərərli xolesterol səviyyəsini azaldan müəyyən bir yağ turşusu növü (yəni doymamış turşular) var. Yağ zeytun və provans adlanır. Zeytun yağı digər yağlarla müqayisədə bədən tərəfindən ən çox

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

həzm olunur. Tibbdə xarici və daxili yumşaldıcı və ağrıkəsici kimi istifadə olunur. Zeytun ağacı, gücü və quruluşun vahidliyi üçün müstəsna bir dəyərdir, bu da ən qiymətli və bahalı torna və dülgərlik üçün istifadə etməyə imkan verir. Ən yüksək yağ növləri yalnız meyvələrin pulpasından əldə edilir, əlləri ilə ağacdan diqqətlə çıxarılır və zəif təzyiqə məruz qalır.

Qızdırılan formada preslənmiş qalan kütlə sabun istehsalında xarici terapevtik istifadə üçün və yanan bir maddə kimi istifadə olunan sözdə taxta yağ verir. Sonra sıxma qaynadılır, səthində sürtkü texniki yağı üzür. Qaynadılmış qalıqlar bir daha güclü şəkildə preslənərsə, rənglənmə işində istifadə olunan qara rəngli qalın bir maye çıxır. Və nəhayət, qalan qalıqlar əla yanacaqdır (Gasanov, Mikeladze, Kopaliani, Suleymanov, 2013)

Göründüyü kimi eramızdan qabaq Azərbaycanda çox qiymətli bitkilər geniş şəkildə becərilmişdir.

Sonra meyvələrin keyfiyyəti, onların tərkbi, yağlılığı zülalın miqdarı, mikroelementlər və vitaminlərlə zənginliyi təyin olunur. Belə bitkilərdən qiymətli zeytun ağacını misal göstərmək olar.

Zeytun həyati formasına görə 10 m-dək hündürlükdə ağac və ya 1-3 m hündürlükdə olan kol bitkisidir. Müxtəlif formal həmişəyaşıl çətirə malik dekorativ bitkidir. Zeytun quraqlığa davamlı ağacdır.

Müxtəlif əkin sxemləri üzrə yaradılmış əkinlərdə zeytun ağaclarının boy artması və inkişaf dinamikası öyrənilmişdir. Tədqiqat materialları əsasında əkin sxemindən (qida sahəsində) asılı olaraq zeytun ağaclarının diametrə və hündürlüyə görə olması dinamikasını əks etdirən əyrilər qurudulmuşdur. Seyrək əkinlərdə diametrə görə daha intensiv artım müşahidə olunur. Belə şəraitdə alçaq ştamb əmələ gələrək dirək gövdə olmur, güclü çətir formalaşır. Zeytun ağaclarında çətirin inkişaf etmə

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

dərəcəsi çətirin horizontal proyeksiyası diametrinin ağacın hündürlüyünə olan nisbəti kimi təyin edilərək bu göstəricinin əkin sxemindən asılılığı və məhsul ilə riyazi əlaqəsi üzrə çıxarılır. Sıx əkinlərdə çətirin inkişaf dərəcəsi vahidin onluq hissəsini təşkil etdiyi halda, seyrək əkinlərdə bu göstərici vahidə yaxınlaşaraq kürəşəkilli çətirin formalaşmasını göstərir. Zeytunun meyvə verməsini, çətirdən asılı olmasını çətirin inkişaf etmə dərəcəsi və məhsul arasında mövcud olan sıx korrelyasiya əlaqəsi təsdiqləyir.

Mədəni halda zeytun ağacı (*Olea*) 300 il, əlverişli şəraitdə isə 1000 ilə qədər yaşaya bilər. Boyu 12 m-ə qədər olan zeytun ağacı müxtəlif formada çətirə malikdir. Meyvələrin rəngi qara və yaşıl, yağlı və yeməlidir. Aprel-may ayında çiçəkləyir, meyvələri oktyabr-noyabrda yetişir.

Məhsuldarlıq yaşdan asılı olaraq getdikcə aşağı düşür. Əkin sahələrində zeytun ağacının məhsuldarlığını bitkilərin bioloji imkanları və becərmə şəraiti təyin edir. Birinci becərilən sortun və ya formanın irsi xassələrindən, ikinci isə rayonun iqlim-torpaq şəraitindən və becərmə aqrotexnikasının səviyyəsindən daha çox asılıdr.

Bu isə ilk növbədə yüksək məhsuldarlığı ilə seçilən sortlardan istifadə etməklə zeytun əkinlərinin elmi cəhətdən əsaslandırılmış texnologiya əsasında yaradılması və intensiv becərmə aqrotexnikasının tətbiqini tələb edir.

Əkinlərdə zeytun ağaclarının inkişaf etmə dərəcəsini, o cümlədən meyvəvermə qabiliyyətini, bütövlükdə qida sahəsi təyin edir. Əkinlərin yaradılması zamanı tətbiq olunan əkin sxemləri torpaq sahələrindən səmərəli istifadə ilə yanaşı, gələcəkdə zeytun ağaclarının normal inkişaf edib bol meyvə məhsulu verməsini təmin etməlidir (Qurbanov, 2009: 356)

**Tətbiqi:** Zeytun dünyanın subtropik ölkələrində çox qədimdən becərilən qiymətli bitkidir. O, hələ eramızdan 2500 il

DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

əvvəl qədim misirlilər tərəfindən becərilmiş, meyvələrindən və yağından bir sıra xəstəliklərə qarşı dərman kimi istifadə edilmişdir. Məsələn, qan təzyiqini aşağı salır. Bundan başqa, zeytun yağı həm ödqovucu vasitə kimi, həm də zəif işlədici kimi, revmatizm, yanıq, göz xəstəlikləri və qara ciyəri qocalmadan qoruyur. Zehnin aydınlaşmasında, qanın şlaklardan və mədə-bağırsağın çöküntülərdən təmizlənməsində işlədilir. Bir sıra xəstəliklərin müalicəsində geniş istifadə olunur. Həmçinin yeyinti məhsulu, xoş dadlı və ətirli ədviyyat kimi istifadə edilir (İbadullayeva, 2013: 331; Dəmirov., Şükürov, 1981: 72 s.).

Meyvələrinin lət hissələrində 70%-ə qədər, toxumunda isə 25-30 % əla kefiyyətli piyli yağ vardır. Bu yağdan həm yeyinti sənayesində, həm də təbabətdə geniş istifadə olunur.

Son illərdə şəhərlərin yaşıllaşdırılması zamanı quraqlığa dözümlü, torpağa az tələbkar tolerant növ kimi istifadə edilir. Meyvələrinin konservi və yağı əvəzolumaz qida olduğu üçün dünyanın bir sıra ölkələrində əkilib becərilir.

Daha məqsədəuyğun olardı ki, yol kənarlarında, yamaclarda əkinə yaramayan sahələrdə zeytun ağaclarından ibarət plantasiya salınaydı. Çünki iqtisadi baxımdan bu ağaclar çox sərfəlidir.

Böyük fərəh hissiylə qeyd etməliyik ki, əsl vətəni Aralıq dənizi sahilləri olmasına baxmayaraq zeytun indi Abşeronda özünə daha əlverişli ikinci vətən tapmışdır. Beləliklə, demək olar ki Azərbaycanda zeytun geniş becərilir (Xalq təbabəti xəzinəsində Azərbaycanın Ensklopediyası, 1992: 223)

Ədəbiyyat məlumatları və çöl tədqiqatları nəticəsində Respublikamızın ərazisində dərman əhəmiyyətli və tərkibində daha çox vitaminlər olan bitki kimi perspektiv əhəmiyyət kəsb edir.

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 45-49
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 45-49
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

Tədqiqatlar nəticəsində müəyyən edildi ki, zeytun yağından ta qədimdən xalq təbabətində mədə-bağırsaq, öskürək, böyrək, öd kisəsi, qara ciyər, sidik kisəsi, qastrit, prostat, qan təzyiqi, malyariya, baş ağrısı, sarılıq podaqra, revmatizm, babasil, nevaralgiya, həmçinin qurdqovucu və s. xəstəliklərin müalicəsində, həmçinin həzmin yaxşılaşmasında, qanın durulaşdırılmasında, sinə ağrılarında, salatların hazırlanmasında, ürəyin qüvvətləndirilməsində, sinir sisteminin sakitləşdirilməsində, bağçalarda və parklarda gözəl görünüşlü dekorativ bitki kimi və s. geniş istifadə edilir.

## Ədəbiyyat

1. Gasanov. Z., Mikeladze. A., Kopaliani R., Suleymanov. Ye., (2013). Subtropicheskiye kultury. Baku.
2. Qurbanov. E., Dərman bitkiləri. (2009). Bakı, 356 s.
3. İbadullayeva. S. Dərman bitkiləri. (2013). Bakı, 331 s.
4. Dəmirov. İ.A., Şükürov. S.Z. (1981). Abşeronun şəfaverici inciləri. Bakı: Elm, 72 s.
5. Xalq təbabəti xəzinəsində Azərbaycanın Ensklopediyası. (1992). Bakı poleqraf birliyi, 223 s.

IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları
7 iyun 2023 / 50-52
Materials of the IV International Conference of the Foundations of Science and Education
7 june 2023 / 50-52
DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04

**Dursun Əliyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
doktorant
nicat-zamanov-94@mail.ru

# BƏRK BUĞDA (*Tritucum durum* L.) NÜMUNƏLƏRİNİN BİOMORFOLOJİ ƏLAMƏTLƏR ƏSASINDA QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *bərk buğda, genetik müxtəliflik, İSSR primer, biomorfoloji əlamət, polimorfizm*
***Keywords:*** *durum wheat, genetic diversity, İSSR primer,biomorphological sign, polymorphism*

Buğda qədim zamanlardan bu günə qədər əsas ərzaq bitkisi kimi əhalinin gündəlik qida rasionunun ödənməsində ən mühüm yerlərdən birini tutur.

Bərk buğda nümunələrinin morfoloji əlamətlərlə qiymətləndirilməsində bəzi məhdudiyyətlər olduğu üçün marker texnologiyası ilə qiymətləndirilmişdir. Molekulyar markerlər məhsul yetişdirilməsində, xüsusilə genetik müxtəlifliyə və müxtəlif məhsul növləri arasında genetik əlaqələrə dair tədqiqatlarda dəyərli məlumatlar verir. Xüsusilə, polimeraza zəncirvari reaksiya (PZR) gücləndirmə fraqmentinin uzunluğu polimorfizmini (AFLP), təsadüfi gücləndirilmiş polimorf DNT, sadə ardıcıllıq təkrarlarını (SSR) və sadə ardıcıllıq təkrarlarını (ISSR) təhlil etmək üçün istifadə olunur (Bornet , Branchard, 2001: 209-215). ISSR markerlərinin iki mikrosatelit arasında DNT hissəsini gücləndirə bildiyi üçün onlardan geniş istifadə edir. Təsadüfi markerlərdən istifadə etməklə, ISSR-lər mikrosatelit markerləri üçün seçicilik nümayiş etdirir və dəqiq ardıcıllıq məlumatı

**IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları**
**7 iyun 2023 / 50-52**
**Materials of the IV International Conference of the Foundations of Science and Education**
**7 june 2023 / 50-52**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

olmadan sintez edilə bilər (Gaber, Mohamed, 2015: 501–508, Morsy, Awadalla, Hussein, El-Dek, 2021: 43). DNT polimorfizminin tədqiqinə əsaslanan molekulyar marker texnologiyası bu zərurətləri aradan qaldırmaqla, yaxın sort və formaları belə fərqləndirməyə, bitkinin inkişaf fazasından asılı olmadan çox qısa vaxtda dəqiq nəticələr əldə etməyə imkan verir. Bitki genomunun molekulyar tədqiqinin aparılmasında ISSR markerlərin seçilməsi və istifadəsi əsas yer tutur. Yeni nümunələrin yaradılması məqsədilə AMEA Genetik Ehtiyatlar İnstitutunda bu bitkinin kolleksiyası yaradılmış və kompleks təsərrüfat əlamətlərinə görə səciyyələndirilmişdir. Yüksək göstəricilərə malik və genetik baxımdan çoxçeşidli nümunələrin istifadəsi seleksiya işlərinin effektivliyi yüksəltməyə imkan verir.

Bu məqsədlə, molekulyar marker texnologiyasından istifadə eməklə tədqiq edilən bərk buğda nümunələrinin genetik müxtəlifliyi qiymətləndirilmişdir. Multilokuslu iki ISSR praymeri vasitəsilə 28 nümunədən ibarət kolleksiya üçün, ümumilikdə, 23 allel amplifikasiya olunmuş, UBC 841 praymeri ilə müəyyən nümunələr üçün unikal allellər qeydə alınmışdır.

Praymerlər üzrə polimorfizm dərəcəsi 65-75% arasında dəyişmiş, orta hesabla 70% təşkil etmişdir. Tədqiqatlar nəticəsində bərk buğda nümunələrinin genetik baxımdan zəngin olması aşkar olunmuşdur. Genetik müxtəliflik indeksi UBC 857 praymeri üçün 0.89, UBC 841 praymeri üçün 0.93 vahid təşkil etmişdir.

Ümumilikdə, nümunə üzrə genetik müxəliflik indeksinin 0.91 vahid olması müəyyən edilmişdir. Yekun nəticələr bərk buğda nümunələrinin pasportlaşdırılmasında və seleksiya işlərinin məqsədli şəkildə aprılmasında istifadə oluna bilər.

**IV Beynəlxalq Elm və Təhsilin Əsasları Konfransının Materialları**
**7 iyun 2023 / 50-52**
**Materials of the IV International Conference of the Foundations of Science and Education**
**7 june 2023 / 50-52**
**DOI: https://doi.org/10.36719/2789-6919/2023/02/04**

## Ədəbiyyat

1. Bornet. B , Branchard. M . (2001). Nonanchored. inter simple sequence repeat (ISSR) markers: reproducible and specific tools for genome fingerprinting. Plant Mol Biol Rep. 19: 209–215. [Crossref], [Web of Science ®], [Google Scholar]
2. Gaber, A., Mohamed. M. E. (2015). "Some economic aspects of wheat crop in Egypt with emphasis on baladi bread manufacturing in alexandria governorate, *International Journal of Social Science and Humanities*, vol. 5, no. 6, pp. s.501–508
View at: Publisher Site | Google Scholar
3. Morsy. A. S., Awadalla. A, Hussein. M. M., El-Dek. S., (2021). "Impact of preceding crop, sowing methods and nano-fertilizer (amino mineral) on bread wheat production and quality in toshka region, Egypt," *Egyptian Journal of Agronomy*, vol. 43. View at: Publisher Site | Google Scholar

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Aysel Şükürova**
İngilis siyasi diskursunda metonimiyalar ................................6
**Ayşən Hüseynova**
Nizami Gəncəvi yaradıcılığında elm və əxlaq məsələləri .......10
**Ləman Abdulova**
Oxucunun inkişafında humanitar və ictimai elmlərin rolu .....13
**Nailə Əliyeva**
Aşıq Ələsgər qoşmalarında saf duyğuların tərənnümü və sufi görüşlərin tədrisi ............................................................19
**Xanım Məmmədova**
B. Vahabzadənin "Şəhidlər" poemasının təhlili ....................23
**Lala Alieva**
The interactive method as one of the leading forms of modern learning ......................................................................28
**Yasər Rüstəmov**
Cəlil Məmmədquluzadənin "Anamın kitabi" əsərinin təhlili və tədrisi metodikası ..................................................32

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Aygün Sərdarova**
Respublikamız ərazisində yayılmış sitrus (*citrus*) bitkilərinin vegetativ orqanlarının anatomik xüsusiyyətləri ..........................................................................35
**Məhsəti Ələkbərova, Fəridə Aslanova**
Göygöl rayonunun ərazisində mövcud olan üzüm sort və genotiplərinin tərkibinin müəyyənləşdirilməsi ...........38

**Aybəniz Hüseynova, Nailə Məmmədova, Ceyla Rüstəmova**
Azərbaycanda yetişdirilən qiymətli zeytun
bitkisi (*olea*) ..................................................................45
**Dursun Əliyeva**
Bərk buğda (*tritucum durum* l.*)* nümunələrinin
biomorfoloji əlamətlər əsasında qiymətləndirilməsi ...............50

İmzalandı: 05.06.2023
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 3.5 ç.v.
Sifariş: 647

---

www.aem.az saytında çap olunub
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az